# X Ə Z Ə R U N İ V E R S İ T E T İ

**Bakı şəhəri** **21 aprel 2021-ci il**

## U / 327 saylı Ə M R

**Nailəxanm İsayevanın xatirəsinə!**

2021-ci il aprelin 3-də əvəzedilməz itki ilə üzləşdik.

Ailə və nəslimizin, Dünya Məktəbi və Xəzər Universitetinin, Azərbaycan təhsil ictimaiyyəti və Azərbaycan ziyalılarının sevimlisi, Dünya məktəbi və Xəzər Universitetinin həmtəsisçisi Nailəxanım İsayeva vəfat etdi.

Azərbaycan və dünyanın yaxın və uzaq ölkələrindən, Avropa, Asiya, Amerika, Afrika və Avstraliyadan Nailə xanımı tanıyan görkəmli şəxslər və sadə insanlar dərin hüzn içində mənə başsağlığı verdilər.

Dərdimizə şərik olan hər kəsə minnətdaram.

Nailəxanım məlahətli, xeyrxah, qayğıkeş, enerjili gözəl insan, ana, həyat yoldaşı, qohum, nənə, həmkar və dost idi.

Nailəxanım usta pedaqoq, mahir təhsil təşkilatçısı, istedadlı musiqiçi, yüksək zövq sahibi insan kimi tanınırdı.

Nailəxanım onu tanıyanların qəlbində yaşayacaq.

Nailəxanım İsayevanın müasirlərinə məlum olan parlaq surətini, əvəzsiz xidmətlərini gələcək nəsillərə ötürmək, Nailəxanımın əziz xatirəsini əbədiləşdirmək üçün Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası aşağıdakı tədbirlərin həyata keçirilməsini qərara alır.

1. Qız və qadınların ali təhsil almasına kömək etmək üçün **Nailəxanım fondu** və onun verəcəyi **Nailəxanım təqaüdü** təsis edilsin. Fondun maliyyə dəstəyi Xəzər Universiteti və Nailəxanımın ailəsi və dostları tərəfindən təmin edilsin.
2. Nailəxanım haqqında dost, həmkar və tanışların yazdığı **xatirələr kitabı** hazırlansın.
3. Nailəxanımın həyat və fəaliyyətini əks etdirən **şəkilli albom-kitab** hazırlansın.
4. Nailəxanımın yazdığı musiqilərin fortepiano, vokal və kamera orkestri üçün **not kitabı** hazırlansın.
5. Nailəxanımın müəllifi olduğu mahnıların tanınmış müğənnilər və qruplar tərəfindən ifası **müsiqi albomu** şəklində hazırlansın, youtube və digər qaynaqlarda nümayiş etdirilsin.
6. Nailəxanımın həyat və fəaliyyətini əks etdirən **videomateriallar** sistemə salınsın və yeni tərtibatda **filmlər** hazırlansın.
7. Dünya məktəbində **Nailəxanım muzeyi** yaradılsın.
8. Dünya məktəbində **Nailəxanımın büstü** qoyulsun.
9. Xəzər Universiteti mədəniyyət mərkəzi **Nailəxanım Mədəniyyət Mərkəzi** adlandırılsın; orada büstü qoyulmaqla **Nailəxanım güşəsi** yaradılsın.

Bu məsələlərin həlli üçün məsul şəxslər, qruplar təyin edilsin və icra mexanizmi yaradılsın.

XƏZƏR UNİVERSİTETİ BAKI 1991

Hamlet İsaxanlı/İsayev,
Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri